# Ulu öndər Heydər Əliyevin anadan olmasının 96-cı ildönümü Fövqəladə Hallar Nazirliyində qeyd edilib

**Mayın 10-da Fövqəladə Hallar Nazirliyinin (FHN) inzibati binasında Azərbaycan xalqının ümummilli lideri, dahi öndər Heydər Əliyevin anadan olmasının 96-cı ildönümünə həsr edilən tədbir keçirilib.**




FHN-dən AZƏRTAC-a bildiriblər ki, əvvəlcə nazirliyin kollektivi Fəxri xiyabana gələrək ümummilli lider Heydər Əliyevin məzarını ziyarət edib, Ulu Öndərin xatirəsini ehtiramla yad edərək məzarı önünə gül-çiçək dəstələri qoyub.

FHN-in inzibati binasında keçirilən tədbir dövlət himninin səslənməsi ilə başlayıb.

Fövqəladə hallar naziri, general-polkovnik Kəmaləddin Heydərov tədbirdə çıxış edərək müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, dahi şəxsiyyət, ulu öndər Heydər Əliyevin adının xalqımızın tarixinə qızıl hərflərlə yazıldığını diqqətə çatdıraraq, Ulu Öndərin ölkəmizə rəhbərlik etdiyi dövrün dövlətçilik tariximizin ən şanlı səhifələrindən biri olduğunu deyib. Nazir bildirib ki, xalqımızın mənafeyini daim hər şeydən yüksək tutan Dahi Öndər hələ sovet dönəmində Azərbaycana rəhbərlik etdiyi illərdə respublikamızın çiçəklənməsi üçün mütərəqqi addımlar ataraq böyük uzaqgörənlik və müdrikliklə Azərbaycanın gələcək müstəqilliyinə əsaslı zəmin yaradıb. 1993-cü ildə xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdan Heydər Əliyev ölkəmizi xaos, anarxiya və özbaşınalıqdan xilas etdi.

K.Heydərov deyib ki, Azərbaycanı qardaş qırğını və məhv olmaq təhlükəsindən qoruyan, dövlətçilik ənənələrini bərqərar edən Ümummilli Liderin müdriklik, uzaqgörənlik və qətiyyətlə müəyyən etdiyi mütərəqqi siyasi kurs sayəsində ölkəmiz qısa müddətdə davamlı və sürətli inkişaf yoluna çıxdı. Məhz ümummilli lider Heydər Əliyevin əsasını qoyduğu inkişaf konsepsiyası Azərbaycanın bu gün dünyanın sayılıb-seçilən ölkələrindən birinə çevrilməsinə şərait yaradıb.

Nazir vurğulayıb ki, Heydər Əliyevin siyasi kursu bu gün Prezident İlham Əliyev tərəfindən uğurla davam və inkişaf etdirilir. Bunun nəticəsidir ki, regionun liderinə çevrilmiş ölkəmiz dünya birliyinin layiqli üzvü kimi regional və qlobal əhəmiyyətli layihələrin reallaşdırılmasına əvəzedilməz töhfələr verir. Dövlətimizin başçısının uzaqgörənliklə atdığı addımlar, bilavasitə təşəbbüsü ilə həyata keçirilən tədbirlər, reallaşdırılan mütərəqqi islahatlar sayəsində ölkəmiz durmadan inkişaf edir, qlobal təlatümlərdən uğurla yan keçir.

Yeni Azərbaycan Partiyası icra katibinin müavini, Milli Məclisin ictimai birliklər və dini qurumlar komitəsinin sədri Siyavuş Novruzov ulu öndər Heydər Əliyevin Azərbaycan xalqı qarşısında misilsiz xidmətlərindən danışıb. Bildirib ki, Heydər Əliyev zamana qalib gəlməyi bacaran dahi və nadir şəxsiyyətlərdəndir. Qəlbi hər zaman Azərbaycanla döyünən Ümummilli Lider fəaliyyətinin bütün dövrlərində xalqımızın yüksək rifahı, işıqlı gələcəyi, inkişafı naminə var gücü ilə çalışıb. Qədirbilən xalqımızın qəlbində əbədi yaşayacaq Ulu Öndərin müəyyən etdiyi mütərəqqi daxili və xarici siyasətin nəticəsidir ki, Azərbaycan bu gün mürəkkəb geostrateji məkanda yerləşməyinə baxmayaq, yüksək inkişaf tempini qoruyur. Sabitlik, əmin-amanlıq, davamlı inkişafın bərqərar olduğu ölkəmizdə əldə olunan bütün uğurların əsası olan bu siyasi kurs Prezident İlham Əliyev tərəfindən böyük məharətlə davam etdirilir. Son illər ölkəmizin əldə etdiyi uğurlar onu deməyə əsas verir ki, Ulu Öndərin şah əsəri olan müasir müstəqil Azərbaycan etibarlı əllərdədir.

Tədbirə yekun vuran nazir K.Heydərov qeyd edib ki, bu gün həm də Heydər Əliyev Fondunun yaradılmasının 15 illiyi tamam olur. Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın rəhbərliyi ilə uğurla fəaliyyət göstərən Heydər Əliyev Fondu ötən dövrdə Azərbaycan xalqı qarşısında böyük xidmətlər göstərib. Müxtəlif problemlərin, o cümlədən baş vermiş ayrı-ayrı fövqəladə hadisələrin nəticələrinin aradan qaldırılmasında, çıxılmaz vəziyyətə düşmüş insanlara hərtərəfli yardımların göstərilməsində və s. istiqamətlərdə gördüyü çoxşaxəli fəaliyyəti sayəsində bu gün Heydər Əliyev Fondu xalqın dərin sevgisini qazanıb. Nazir nümunə olaraq bu il fevralın 5-də və 6-da baş vermiş zəlzələ nəticəsində Ağsu, Şamaxı və İsmayıllı rayonlarında zərər çəkmiş evlərin və sosial təyinatlı obyektlərin tikinti və bərpası ilə bağlı Fondun gördüyü böyük işləri qeyd edib. O, bütün bu xidmətlərə görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə və Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevaya Fövqəladə Hallar Nazirliyinin kollektivi adından dərin təşəkkürünü bildirib.

# "MÜSTƏQİL AZƏRBAYCAN DÖVLƏTİNİN QURUCUSU"

## Ulu Öndərin 96 illiyinə həsr edilmiş kitabın təqdimatı olub

**Mayın 10-da Azərbaycan Milli İncəsənət Muzeyində Səbail Rayon İcra Hakimiyyəti və YAP Səbail rayon təşkilatının birgə təşkilatçılığı ilə ümummilli lider Heydər Əliyevin anadan olmasının 96-cı ildönümü münasibətilə tədbir və "Müstəqil Azərbaycan dövlətinin qurucusu" adlı kitabın təqdimatı keçirilib.**







AZƏRTAC xəbər verir ki, tədbirdə çıxış edən YAP Səbail rayon təşkilatının sədri, Milli Məclisin deputatı Şəmsəddin Hacıyev Ulu Öndərin siyasi fəaliyyətindən danışıb. O qeyd edib ki, Heydər Əliyev ömrünün böyük hissəsini doğma Vətəninin inkişafına və xalqının rifahına həsr edib. Ən çətin vaxtlarda xalqının yanında olan, xilaskarlıq missiyasını uğurla yerinə yetirən və müstəqil Azərbaycanın qurucusuna çevrilən Ulu Öndərin siyasi-ideoloji irsi Azərbaycan xalqının milli sərvətidir. Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra Azərbaycan dinamik inkişaf yoluna qədəm qoyub, dünyəvi, demokratik və hüquqi dövlət quruculuğu, vətəndaş cəmiyyətinin formalaşması prosesi başlayıb. Ümummilli Liderin fəaliyyətinin əsasında dayanan xilaskarlıq missiyası onun Vətən, xalq sevgisindən qaynaqlanırdı.

Azərbaycan Ağsaqqallar Şurasının sədri, Milli Məclisin deputatı Fəttah Heydər qeyd edib ki, Ulu Öndərin uzaqgörən siyasəti, zəngin dövlətçilik təcrübəsi və qətiyyəti sayəsində ölkədə qısa müddət ərzində sabitliyə və tərəqqiyə nail olunub. Məhz ulu öndər Heydər Əliyevin səyləri nəticəsində 1994-cü ildə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsində atəşkəs əldə edilib. Heydər Əliyevin həyata keçirdiyi uzaqgörən siyasətin davamı olaraq 1994-cü il sentyabrın 20-də "Əsrin müqaviləsi" imzalanıb və bununla da Azərbaycanın etibarlı tərəfdaş ölkəyə çevrilməsi təsbit olunub. "Əsrin müqaviləsi"nin nəticəsi olaraq, iri həcmdə xarici sərmayə Azərbaycan iqtisadiyyatına cəlb edilərək ölkənin inkişafında əvəzsiz rol oynayıb. Bu gün Prezident İlham Əliyev ümummilli lider Heydər Əliyevin siyasətini uğurla davam etdirir. Hazırda Azərbaycan dünyada sülhün, əmin-amanlığın nümunəsidir.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri, YAP icra katibinin müavini Mübariz Qurbanlı deyib ki, 1993-cü il iyunun 15-nin Azərbaycanın tarixinə Milli Qurtuluş Günü kimi daxil olması səbəbsiz deyil. Azərbaycan xaosdan, anarxiyadan, özbaşınalıqdan xilas oldu, inkişaf yoluna çıxdı. Ulu öndər Heydər Əliyevin düşünülmüş və məqsədyönlü siyasəti nəticəsində Azərbaycan qısa müddətdə sabitlik diyarına çevrilib. Ümummilli Liderin siyasi kursunun layiqli davamçısı Prezident İlham Əliyev ilk gündən Azərbaycanın daha qüdrətli, güclü dövlətə çevrilməsi üçün Heydər Əliyev siyasətinin davam etdirilməsinin vacibliyini bəyan etdi.

Milli Məclisin komitə sədri Hadi Rəcəbli, "Yeni Azərbaycan" qəzetinin baş redaktoru, deputat Hikmət Babaoğlu, deputatlar Musa Quliyev, Elman Nəsirov, "SƏS" Media Qrupun rəhbəri Bəhruz Quliyev və başqaları bildiriblər ki, Ümummilli Liderin həyat yolu, göstərdiyi əvəzolunmaz xidmətlər Vətəninə, xalqına, dövlətinə bağlı olan hər bir azərbaycanlı üçün, bütövlükdə dövlətçilik tariximiz üçün örnəkdir. Bu dahi şəxsiyyətin, görkəmli dövlət xadiminin və dünya miqyaslı nəhəng siyasətçinin zəngin irsini dərindən araşdırmaq, onun təkrarolunmaz dövlətçilik təcrübəsindən bəhrələnmək və gənc nəsli bu ruhda tərbiyə etmək nəinki bu günümüz, eləcə də gələcəyimiz üçün mühüm əhəmiyyət kəsb edir. Müasir Azərbaycanı ümummilli lider Heydər Əliyevin və Prezident İlham Əliyevin rəhbərliyi ilə gerçəkləşən uğurlu islahatların parlaq nümunəsi hesab etmək olar.

Sonra qonaqlar muzeyin foyesində Ümummilli Liderin həyat və fəaliyyətinin müxtəlif dövrlərini əks etdirən fotosərgi ilə tanış olublar.